# "Exit-poll"un nəticələri Azərbaycanın demokratik inkişafının növbəti təsdiqi oldu







**Seçkilərdə demokratikliyin və şəffaflığın təmin olunması baxımından "exit-poll" əhəmiyyətli tədqiqat növü hesab edilir. O həmçinin kimin qalib gəldiyini operativ və obyektiv şəkildə müəyyənləşdirməyə, bununla da seçki kampaniyasına nəzarət etməyə imkan verir.**

Seçki günü sorğu aparan "exit-poll" əməkdaşları seçicilər məntəqələri tərk etdikləri zaman onlara kimə səs verdikləri barədə sual ünvanlayırlar. Könüllü və anonim aparılan sorğuda seçicinin cavabları heç kimə göstərilmir. Yaxud da seçicilər "exit-poll" sorğu vərəqini təklikdə doldurur, sonra onu seçki məntəqəsindən bir qədər aralıda qoyulan "exit-poll" qutusuna atırlar. Səslərin hesablanmasının yekun nəticələri "exit-poll"un gözlənilən xəta həddindən kənara çıxarsa, bu zaman səslərin rəsmi hesablanmasının saxta olması barədə şübhələr yaranır.

Ölkəmizdə seçkilər zamanı uzun müddətdir keçirilən "exit-poll" 7 fevral prezident seçkilərində də tətbiq edildi. Seçkilərdə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə 40 seçki dairəsi üzrə 500 seçki məntəqəsində, "Rəy" Monitorinq Mərkəzi 33 seçki dairəsi üzrə 200 seçki məntəqəsində, "Sosioloji Tədqiqatlar Mərkəzi" MMC 25 seçki dairəsi üzrə 125 seçki məntəqəsində "exit-poll" keçirdi.

Fevralın 7-də keçirilən prezident seçkilərindən sonra "exit-poll" keçirən təşkilatlar nəticələri açıqladılar. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ilə ABŞ-nin "ORACLE ADVISORY GROUP"un nəticələrinə əsasən, seçicilərin 93,9 faizi, Sosioloji Tədqiqatlar Mərkəzinin nəticələrinə əsasən, seçicilərin 92,4 faizi, "Rəy" Monitorinq Mərkəzinin nəticələrinə əsasən isə seçicilərin 92,6 faizi İlham Əliyevə səs verib.

Azərbaycanın demokratik inkişafının nəticəsi olaraq prezident seçkiləri şəffaf, azad və ədalətli keçirildi. "Exit-poll"un nəticələri də bunu təsdiq etdi. Prezident seçkilərinin nəticələri Azərbaycanda demokratik dəyərlərin tam bərqərar olduğunu bir daha dünyaya nümayiş etdirdi.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 9 fevral, № 28.- S.14.